Təhsildə Keyfiyyət Təminatı Agentliyi Azərbaycan Respublikasının vətəndaşları üçün qeyri-formal və informal üsullarla əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübələrin qiymətləndirilməsi, tanınması və peşə ixtisasını təsdiq edən sənədin verilməsi məqsədi ilə "Plastik boru qaynaqçısı" ixtisası üzrə imtahan elan edir.

Belə ki, artıq özünütəhsil yolu ilə biliklərə yiyələnmiş (informal təhsil) və müxtəlif kurslarda, dərnəklərdə, fərdi məşğələlərdə təlim keçmiş (qeyri-formal təhsil) vətəndaşlara təhsil haqqında sənəd əldə etmək imkanı yaradılıb. Bunun üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinə müraciət edərək imtahanlarda iştirak etməyiniz kifayətdir.

Müraciət qaydaları, tələb olunan sənədlər və imtahan barədə ətraflı məlumat almaq üçün keçiddən istifadə edə bilərsiniz.